Azərbaycan, № 45.- S.6.

28 fevral 2024-cü il

# Ermənistan hər bir təxribatına görə cəzalandırılacaq

**"Ermənistan 44 günlük müharibədəki məğlubiyyətindən sonra yenidən silahlanmaq yolunu tutub. Lakin İrəvan və havadarları bilməlidirlər ki, bu, onlara uğur gətirməyəcək".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. Deputat bildirib ki, Ermənistan nə qədər silahlanarsa silahlansın, istədiyinə nail ola bilməyəcək: "Yeni müharibəyə başlamaq istəyinin özü Ermənistanın faciəsidir. Bu ölkə unudur ki, Azərbaycan onun heç bir hərəkətinə güzəşt etməyəcək və istənilən təxribat cəhdinin sərt cavabı həmin andaca veriləcək. Ermənilərin saxta göz yaşları onlara artıq uğur gətirmir, əksinə, hörmətdən salır. Bu gün Ermənistan nə bir dövlət, nə də bir xalq kimi hörmət sahibi deyil. Çünki bu ölkənin siyasəti ədalətli deyil".

Deputat qeyd edib ki, Rusiyadan uzaqlaşmaq istəyən Ermənistan bu gün Fransanın caynağına keçib: "Paris Cənubi Qafqazda möhkəmlənmək, xüsusilə də regionda hərbi varlığına nail olmaq üçün Ermənistana silah verir. Hindistan da eyni siyasəti yürütməyə çalışır. Amma bununla yanlış yol tutublar. Məgər Azərbaycanın silahı yoxdurmu?! Azərbaycan dünyanın ən müasir silahlarını almırmı?! Bütün bunların fonunda Ermənistanın havadarlarının belə gülünc vasitələrdən istifadə etmələri nəyə lazımdır?! Ermənistan düzgün yol seçməli, tezliklə Azərbaycanla sülh müqaviləsi imzalamalıdır. Xalqının firəvan gələcəyi və tərəqqisi naminə sülh Ermənistan üçün ən optimal çıxış yoludur".

Anar İsgəndərovun sözlərinə görə, bu gün Ermənistanın rəhbərliyi çabalayır, səhər bir söz deyir, günorta başqa, axşam isə tamam başqa fikir səsləndirir: "Bu, Ermənistan rəhbərliyinin və cəmiyyətinin İkinci Qarabağ savaşından sonra yaşadıqları dərin iqtisadi və siyasi faciə ilə əlaqədardır. Onlar gah Qarabağın Azərbaycan torpağı olduğunu etiraf edir, gah da həmin ərazilərdə etnik təmizləmə həyata keçirdiyimizə dair iddialar səsləndirirlər. Bu azmış kimi bəzən də yenidən Qarabağa qayıdacaqları barədə xam xəyallar qurur və bunu dilə gətirirlər. Lakin unudurlar ki, Azərbaycan hər keçən gün gücünə güc qatır və qətiyyən tək deyil. Bu gün türk dövlətləri arasında Azərbaycanın xüsusi mövqeyi var. Qərbin isə, ümumiyyətlə, Azərbaycana ehtiyacı var. Təsadüfi deyil ki, bu gün Qərbin bir sıra dövlətlərinin başçıları enerji problemlərini həll etmək üçün Prezident İlham Əliyevlə görüşməyə çalışırlar".

Deputat həmçinin Ermənistanın Fransa və Hindistandan silah almasını faydasız adlandırıb. Deyib ki, birincisi, Ermənistanın iqtisadi gücü ona imkan vermir ki, istədiyi silahı alsın: "İkincisi isə, Ermənistan bu silahları hansısa yolla əldə etsə belə, faydası olmaz. Əsgərimizə açılan hansısa bir güllə ermənilər üçün ağır başa gələ bilər. Ona görə Ermənistan Azərbaycanın regionda bərpa etmək istədiyi sülh təklifinə müsbət cavab verməlidir. Azərbaycan sözün həqiqi mənasında sülh, əmin-amanlıq və təhlükəsizlik üçün çalışır. Lakin erməni sülh istəmirsə və ölkəmizə qarşı yeni iddialar qaldırırsa, bu, Ermənistanın məhv olması deməkdir".

Anar İsgəndərov yekunda söyləyib ki, Ermənistana güzəşt olmayacaq. Azərbaycanla bağlı fikirləri bədxah olanların niyyətləri ürəklərində qalacaq.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*